# Yeni il

## Dünya ölkələrinin maraqlı Yeni il adətləri

2018-ci il tarix oldu. Beləcə yeni il qarşıladıq. Yeni təqvim ilinə keçidlə bağlı hər bir xalqın özünəməxsus qeyri-adi ənənələri var və bu ənənələr çox qədim zamanlardan müasir dövrə kimi qorunub saxlanılıb.

Ekvador sakinlərinin Yeni il ənənələri olduqca maraqlıdır.

Burada kimsə növbəti ildə daha çox səyahət etmək istəyirsə, gecə saat 12-də böyük çamadanla yaşadığı binanın ətrafında bir neçə dövrə qaçmalıdır.

İtaliyada yeni il şənlikləri köhnə əşyaların atılması ilə başlanır. Buna görə küçədə olan adamlar yoldan keçərkən ehtiyatlı olmalıdırlar. İtalyanlar bu ənənəni çox sevirlər. Çünki köhnə ildə atılmış əşyalar yeniləri ilə təzələnir. İtalyanlar bayram süfrəsinə qoz, mərci və üzüm qoymağı mütləq sayırlar və bu qida məhsullarını uzunömürlülük, sağlamlıq rəmzi kimi qəbul edirlər. İtaliyada Yeni il ənənələrindən biri bayram münasibətilə yaxın və doğma insanlara su doldurulmuş qabın içərisinə zeytun budağı qoyub hədiyyə etməkdir. Belə qəbul olunub ki, bu hədiyyə insanlara xoşbəxtlik gətirir.

İspaniyada da bayram şənlikləri böyük təntənə ilə keçirilir. İspanların ən əsas Yeni il ənənəsi on iki üzüm giləsi ilə bağlıdır. Bu ölkənin sakinləri yeni il gecəsi yaşadıqları şəhərin mərkəzinə çıxır, yeni ilə 12 saniyə qalmış niyyət tuturlar, hər saniyə ərzində bir gilə üzüm yeyib tumlarını atırlar. Əsas məsələ saniyə ərzində bu prosesi vaxtında həyata keçirməkdir. Kim bunu bacarırsa, növbəti ildə onu uğurlar gözləyir. İspanlar üçün üzüm uğur, bolluq, xoşbəxtlik rəmzi sayılır.

İspanların daha bir bayram ənənəsi isə bayram günündə kilsənin qarşısına yığışıb ötən ildə baş verən hadisələri xatırlamaqdır. Bəzən bu tədbir saatlarla davam edir.

Vyetnamda yeni il ay təqvimi ilə yanvarın axırında və ya fevralın əvvəlində qarşılanır. Bu zaman burada bahar havası olur. Yeni il süfrəsinə toplaşan qonaqlar əllərində çiçək dəstələri tuturlar. Vyetnamlılar Yeni il axşamı əziz adamlarına çiçək açmış ərik ağacının budaqlarından düzəldilmiş çələng bağışlayırlar.

Macarıstanda Yeni il axşamı milli paltar geymiş cavanlar küçələrə çıxıb musiqi çala-çala gəzməyə başlayırlar. Dəstəbaşı təntənəli sürətdə elan edir ki, köhnə ili "dəfn" eləyib yenisini qarşıladığımız üçün hamı yeyib-içib şənlənməlidir. Küçələri gəzən cavanlar hansı evin qabağında dayansalar, ev sahibi mütləq onları ləzzətli yeməklərə və şəraba qonaq etməlidir. Macarlar Yeni il süfrəsinə qaz, ördək, toyuq bişirib qoymazlar. Guya Yeni ildə quş əti yeyənin səadəti uçub gedə bilər. Subay qızlar bu adətə daha çox riayət edirlər ki, yeni ildə ərə gedə bilsinlər.

Danimarkada Yeni ili tullanmaqla qarşılayırlar. Belə ki, gecə saat 12-də hamı stulun üstünə çıxır və tullanır. Beləliklə, onlar köhnə ildən təzə ilə tullanırlar. Bu ölkədə daha bir bayram ənənəsi yaxın dostların və qonşuların qapılarına boşqab çırpmaqdır. Kimin qapısının kandarında daha çox qab-qacaq qırıntıları varsa, gələn il onun üçün düşərli və uğurlu olur.

Yunanıstanın bəzi əyalətlərində yeni ili yanvarın 3-də qarşılayırlar. Həmin gün kişilərə aid olan bütün hüquq və ixtiyar qadınlara verilir. Qadınlar qoyun və ya donuz kəsib təmizləyir, oxuya-oxuya gəzintiyə çıxırlar. Kişilər isə ev süpürür, qab-qacaq yuyur, uşaqlara baxır və özlərinə təskinlik verirlər ki, eybi yoxdur, bu vəziyyət cəmi bircə günlükdür. Daha bir ənənəyə görə isə qonaqlar təşrif buyurduqları ailələrə hədiyyələr gətirirlər. Bu hədiyyələrin arasında daş da olur. Daş nə qədər ağır olarsa, həmin ailənin növbəti ildə var-dövləti də həmin ağırlıqda olar. Yunanların ənənəsinə görə bayram ziyafəti başa çatdıqdan sonra ailənin başçısı bir ədəd narı həyətdə yerə çırpır. Narın dənələri nə qədər çox səpələnərsə yeni il də bir o qədər uğurlu olar.

Braziliyada Yeni il şənlikləri olduqca romantik keçirilir. Bayram günü braziliyalılar okean sahilində qum üzərində şamlar yandırırlar. Qadınlar isə uzun paltarlarda suya girib gül ləçəklərini okeana atırlar. Bayram şənliklərinə karnavallar xüsusi gözəllik qatır.

Rumıniyada Yeni il süfrəsi üçün içərisi sürprizlərlə dolu kökə bişirmək dəbdir. Yağlı kökənin içərisində daha çox pul, gümüş üzük, acı istiot qoyurlar. Yemək vaxtına kimin bəxtinə nə çıxdı, çıxdı. Bəxtinə istiot çıxan adam il boyu ehtiyatla dolanmalıdır ki, acı günlər ondan uzaq olsun. Kökəsindən pul və üzük çıxanları isə xoşbəxtlik gözləyir.

Avropanın çox ölkəsində Yeni ili xüsusi təmtəraq və ciddi qaydalarla qarşılayırlar. Elə ölkə var ki, orada Şaxta baba, elə yerlər də var ki, orada uşaqların Şaxta nənəsi olur. Şaxta babanın adı Noel ata, Şaxta nənənin ismi isə Befandır. Avropada belə bir fikir də dəbdədir ki, Yeni il axşamı ən yaxşısı evindən bayıra çıxmamaqdır. Bunun da bir səbəbi var: həm o axşam pəncərədən atılan köhnə mebellər sənin üstünə düşməz, həm də bayramı hansı ovqatla qarşılasan, elə o əhval-ruhiyyə ilə də sona çatdırarsan.

Rusiyada isə hər evdə kilsə şamları yandırılır. Süfrəyə mütləq müxtəlif yeməklər, salatlar, içkilər, piroqlar qoyulur. İnanclara görə, süfrə nə qədər zəngin və gözəl olarsa, gələn il də elə gözlənilər. Rusların süfrəsinin tən ortasında mütləq qızardılmış donuz balası qoyulmalıdır. İnanca görə, donuz var-dövlət simvoludur. Süfrəyə quş ətindən heç nə verilməz. Belə hesab edilir ki, xoşbəxtlik evdən uça bilər. Gələn qonaqlara xəmirdən hazırlanmış müxtəlif fiqurlu şirniyyatlar paylanılır. Yeni il axşamı mütləq təzə paltar və ayaqqabı geyinilməlidir. Yaxın adamlar bir-birini təbrik edir, qonaq gedir, səhərədək yemək-içmək bitmək bilmir.

Azərbaycanda isə Yeni il axşamının bir özəlliyi ondan ibarətdir ki, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Gününə təsadüf edir. Doğrudur, Yeni ilin gəlişini biz adətən Novruz bayramında qeyd edirik. Amma illərdir ki, yeni ili də eyni məhəbbətlə qarşılayırıq. Süfrəmizə ləziz yeməklərlə bərabər, milli mətbəximizin gözəl təamları da qoyulur.

## Santa Klaus və ya Şaxta baba

Cəmiyyətimizdə Şaxta baba kimi tanınan personajın dünyanın müxtəlif ölkələrində fərqli adları var: Sant Nikolas, Nikolas of Mariya, Santa Klaus, Pere Noel, müqəddəs ata Kristmas bunlardan bəziləridir. Yeni İl bayramını Uşaqların öz doğma babalarından belə çox sevdikləri Şaxta babasız təsəvvür etmək mümkün deyil. Bu mehriban qocanı dünyanın müxtəlif yerlərində müxtəlif cür adlandırsalar da, bu adlardan ən çox populyar olanı Santa-Klausdur.

Bu obrazın yaranma tarixi əsrlərin dərinliyinə gedib çıxır və onunla bağlı ta qədimdən bəri yaranan əfsanə və rəvayətlər zaman keçdikcə dəyişikliklərə uğrayaraq şəkildən şəklə düşüb.

Bugünkü Türkiyə Cümhuriyyətinin Muğla (Demre) vilayətinin Pataraşəhərində Santa Klaus kilsəsi mövcuddur. Patara antik dövrdə mövcud olmuş Hiziya dövlətinin şəhərlərindən biridir. Nikolas adlı bu rahib Patara şəhərinin baş keşişi seçilmişdi. Əfsanəyə görə həmin şəhərdə kasıb bir kişinin 3 qızı vardı. Bu qızlar cehiz



üçün pul tapa bilmirdilər. Keşiş Nikolas bundan xəbər tutub bir gecə gizlincə bu qızların evinə gəlir. Pəncərədən və bacadan evə qızlar üçün pul kisəsi atır. Qızların cehiz pulu düzəlir. O gündən xristianlar maddi problemi olanlara müqəddəs Nikolasın kömək edəcəyinə inanırlar.

Xristian dünyasında Şaxta baba Müqəddəs Nikolay kimi tanınır. Müqəddəs Nikolay sonralar Mərkəzi və Şimali Almaniyada Weinachtsmann (alman dilində Weinachten - milad, mann isə kişi deməkdir), İngiltərədə isə Father Christmams - Miladın Atası adlandırılıb. Avropalı mühacirlərlə Birləşmiş Ştatlaradək gedib çıxan Müqəddəs Nikolay burada artıq Santa Klausa çevrilib. Şimali Amerika ədəbiyyatında və təsviri sənətində Santa Klaus öz ağ saqqalı, qırmızı kürküylə 8 maral qoşulmuş arabasında milad gecəsi peyda olaraq sobaların borusundan evlərə daxil olur və sobanın yanından asılmış corabların içinə uşaqlar üçün hədiyyələr qoyur.

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır.

## Yeni il lətifələri

Uşaq qışqıraraq deyir:

- Şaxta Baba mən yeni ildə maşın istəyirəm

Anası:

- Oğlum bərk qışqırma Şaxta Baba ən asta səsi belə eşidir

Uşaq:

- Amma atam eşitmir.

* * *

Yeni il ata oğlu ilə danışır:

- Oğlum sən artıq böyüksən. Bilməlisənki şaxta Baba yoxdur yalandır. O mən idim.

Oğul atasına:

- Ata narahat olma mən bilirəm ki, o sən idin hətta məni bu evə gətirən də sənsən.

* * *

Yeni il süfrəsidir ailə süfrə başında əyləşib . Birdən bir çəngəl yerə düşür, lakin kişi çəngəli yerə dəymədən tutur:

- Şükür. Yoxsa yenə qonaq gələcəkdi.

Elə bu vaxt kiçik qızı içəri daxil olur və deyir:

- Ata, ata xala liftə qaldı.

* * *

Yeni il. Əsgər:

- Bu Şaxta baba hər şeyi səhv saldı.

-Niyə?

- Uşaq olanda ondan əsgər forması istədim. O isə indi gətirdi.

* * *

Yeni il ərəfəsində poçta bir məktub gəlir. Məktub Şaxta Babaya ünvanlanıb.

-Salam Şaxta baba. Mən Məmmədəm. Mən yeni ili çox sevirəm. Amma hava soyuqdur, mən də çıxıb qartopu oynaya bilmirəm. Çünki şubam, papağım əlcəyim, ayaqqabım yoxdur. Poçt işçiləri yığışıb uşağa hər şey alırlar bir əlcəyə pul çatmır. Qərara alıb əlcəksiz göndərirlər. Bir neçə müddət sonra yeni məktub gəlir.

-Çox sağ ol Şaxta baba. Amma əlcək yox idi. Yəqin poçta oğurlayıblar.

* * *

Yeni ilə 1-2 gün qalmış uşağı nənəsini yanına gətirirlər..Nənə nəvəsi ilə oynayır, yedirir, yatırdır..Uşaq oyananda qışqırmağa, dəcəllik etməyə başlayır..Axırı nənə deyir :

- Bax, özünü yaxşı aparsan, Şaxta baba sənə oyuncaq qatar gətirəcək.

Uşaq sevinir :

- Aaa...nə yaxşıı...indi mənim iki oyuncaq qatarım olacaq.

- İki niyə ? - nənə təəccüblənir.

- Birini sənin çarpayının altından tapmışam.

* * *

- Şaxta baba, gətirdiyin hədiyyə üçün çox sağ ol.

- Əşşi boş şeydi..Təşəkkür etməyə dəyməz.

- Mən də o fikirdəyəm. Ancaq anam dedi ki təşəkkür et.